

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 216 (23.127)

*13 noyabr 2018-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Ümumdünya Antidopinq Agentliyinin prezidenti Kreyq Ridinın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Ümumdünya Antidopinq Agentliyinin Təsisçilər Şurasının və İcraiyyə Komitəsinin iclaslarının Azərbaycanda keçirilməsindən məmnunluğunu bildirib və bu tədbirlərdə dünyanın müxtəlif ölkələrindən xeyli sayda qonağın iştirak etməsinin önəmini qeyd edib.

Ölkəmizə səfərinin onun üçün çox xoş olduğunu bildirən Ümumdünya Antidopinq Agentliyinin prezidenti Kreyq Ridi Azərbaycan tərəfinin bu tədbirlərin təşkilinə böyük dəstək göstərdiyinə görə təşəkkürünü ifadə edib.

* * *

Noyabrın 12-də Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki Elektron Hökumətin İnkişafı Mərkəzinin inzibati binasının açılışı olub.



## Naxçıvanda "Ailə təsərrüfatı məhsulları" festivalı keçirilib





Noyabrın 10-da "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Ailə təsərrüfatı məhsulları" festivalı keçirilib.

Tədbirin aparıcıları Naxçıvanda ailə təsərrüfatlarının inkişaf tarixi və bu sahədə görülən işlər barədə məlumat veriblər.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Ədalət Hüseynov çıxış edərək demişdir ki, muxtar respublikada ailə təsərrüfatlarının inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Yaradılan şəraitin nəticəsidir ki, ailə təsərrüfatlarının sayı getdikcə artır, ailə biznesi genişlənir. Bu da kiçik və orta sahibkarlığın inkişafına əlavə imkanlar açır. Ədalət Hüseynov ailə təsərrüfatlarının inkişafına göstərdiyi diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov festivalda iştirak etmişdir.

Məlumat verilmişdir ki, festivala muxtar respublikanın bütün rayonlarından olan 319 ailə təsərrüfatı tərəfindən 418 növdə 23 mindən çox qablaşdırılmış məhsul çıxarılmışdır. Festival iştirakçılarına adı dillər əzbəri olan Naxçıvan məhsulları – Nehrəm pendiri və qatığı, Ordubad alanası, sucuğu, cəvizi, Şərurun müxtəlif çeşidli ət və balıq məhsulları, meyvə araqları, Sədərək çörəyi, Şahbuz qaymağı və xaması, Qıvraq badamı, Naxçıvan qovurması, mürəbbə və şirniyyatları, eləcə də lavaşalar, turşular, meyvə şirələri təqdim olunurdu.

Festivala çıxarılan bütün məhsulların qablaşdırılması onlara olan tələbatı daha da artırır. Artıq Nehrəm kəndindəki "Xalaoğlu" ailə-fermer təsərrüfatının yeni yaradılmış istehsal sahələrində 15 formada tara istehsalı həyata keçirilir. Bundan başqa, müəssisədə ailə təsərrüfatlarının sifarişləri qəbul olunur və tələbata uyğun tara istehsalı aparılır.

Bu il festivalda ailə təsərrüfatlarının istehsalı olan müxtəlif əl işləri də nümayiş olunurdu. Ağacişləmə və toxuculuq nümunələri, duzdan hazırlanmış müxtəlif fiqurlar, təndirlər, Şərur rayon sakini Sirus Novruzovun hazırladığı dekorativ-tətbiqi sənət nümunələri, xüsusilə də heyvan və quş fiqurları maraqla qarşılanmışdır.



Festivalda milli mətbəx nümunələrimiz – çörək bişirilməsi, nehrə yağının, yarma və daş küftənin hazırlanması əyani şəkildə göstərilmişdir.

Naxçıvan təbiətinin nemətlərindən olan, Günnüt, Havuş, Keçili, Kükü, Boyəhməd, Tivi və digər kəndlərdən yığılan dərman bitkiləri – kəklikotu, qantəpər, yarpız, solmazçiçək, dağ nanəsi, şirinbiyan, eləcə də yabanı giləmeyvələr – yemişan, həmərsin və onlardan hazırlanmış müxtəlif məhsullar qablaşdırılaraq festivala çıxarılmışdı. Tarixən Naxçıvan Muxtar Respublikasının ərazisində meyvəqurutma geniş inkişaf etmişdir. Hazırda muxtar respublikada bu ənənə yaşadılır, meyvəqurutma sahəsində qazanılan qədim təcrübə tətbiq edilir. Naxçıvan mətbəxində də geniş istifadə olunan alça, göycə, ərik, tut və digər meyvə quruları qablaşdırılaraq nümayiş olunurdu.




Naxçıvanda ailə əməyinə əsaslanan təsərrüfatlar min illər ərzində yaranmış, böyük yol keçərək hazırkı inkişaf səviyyəsinə yüksəlmişlər. Torpaqla bağlı yaranan zərbməsəllər, atalar sözləri də bu sahənin xalqımızın həyatında nə qədər mühüm rol oynamasının təzahürüdür. Bu gün muxtar respublikada ailə təsərrüfatları daha çox heyvandarlıq, quşçuluq, arıçılıq, bağçılıq və əkinçilik sahələri üzrə fəaliyyət göstərirlər. Sahibkarlara güzəştli şərtlərlə kreditlərin, müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqların verilməsi, arıçılıq avadanlıqlarının lizinq yolu ilə əhaliyə çatdırılması, subsidiyaların ödənilməsi, arıçılıq təsərrüfatlarının müxtəlif dərman preparatları ilə pulsuz təmin edilməsi, istehsal olunmuş məhsulların satışı üçün əlverişli şəraitin yaradılması və keçirilən festivallar muxtar respublikada ailə təsərrüfatlarının inkişafına hərtərəfli şərait yaradır. Bunun nəticəsidir ki, hazırda muxtar respublikada 800-dən çox kiçik və böyük ailə təsərrüfatı mövcuddur.

Ali Məclisin Sədri ailə təsərrüfatlarının sahibləri ilə söhbət etmiş, onların istehsal etdikləri məhsullardan almışdır.

Naxçıvan şəhər sakini Sevda Cabbarova, Şərur rayon sakinləri, dərman bitkiləri istehsal edən Namiq Musayev, təbii araqlar hazırlayan Müqabil Zamanov, Nehrəm kənd sakini, müxtəlif növdə doşab, pendir və turşu istehsal

*Ardı 2-ci səhifədə*





edən Tofiq Abutalıbov, badamçılıqla məşğul olan Çalxanqala kənd sakini Şahzadə İsmayılov, alma və üzüm sirkəsi istehsal edən,



qovut, əriştə və müxtəlif mürəbbələr hazırlayan Kırna kənd sakini Çiçək Bayramova ailə təsərrüfatlarının inkişafı üçün yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə minnətdarlıq etmişlər.



Ordubad rayonunun Ələhi kənd sakini, nümunəvi ailə təsərrüfatı sahibi Yaşar Həbibov festivala 33 adda məhsul çıxarıb. Xüsusilə tutdan hazırladığı araq və doşablar, müxtəlif turşular, Ordubad mürəbbələri, dərman bitkilərindən istehsal etdiyi müalicəvi araqlar, çayır cövhəri yüksək keyfiyyəti ilə seçilir.

Yaşar Həbibov minnətdarlıq edərək demişdir: Muxtar respublikada insanların rahat yaşaması üçün bütün imkanlar var. Ailə təsərrüfatlarının inkişafı, bu sahəyə göstərilən dəstək bunu bir daha təsdiq edir. Abad kəndlərimiz, rahat yollarımız var. Məhsullarımızı heç bir çətinlik çəkmədən bazara çıxara bilirik, keçirilən festivallarda iştirak edirik. İstehsal olunan məhsullarımızın qablaşdırılması onlara olan tələbatı daha da artırıb. Bu da bizi həvəsləndirir, daha çox məhsul istehsal edirik.

Hərbi xidmətdə olan nəvəsini görmək üçün Naxçıvan şəhərinə gələn Hacıqabul rayon sakini Yaqub Teymurbəyli ailə üzvləri adından Ali Məclisin Sədrinə minnətdarlıq edərək demişdir: Ulu öndərimizin vətəni Naxçıvanın inkişafı, tərəqqisi məni çox qürurlandırır. Nəvəm muxtar respublikada hərbi xidmətdədir. İstər Naxçıvanda insanların yaşayışı, istərsə də övladlarımızın hərbi xidmət keçməsi üçün hər cür şərait yaradılıb. Naxçıvandakı sabitlik, inkişaf və tərəqqi ən böyük vətənpərvərlik nümunəsidir.



Ali Məclisin Sədri ailə təsərrüfatlarına bundan sonra da dəstək göstərilməsinin vacibliyini bildirmiş, ailə təsərrüfatlarında istehsal olunan məhsulların ixrac imkanlarının yaradılması, həmin məhsulların kənd təsərrüfatı məhsulları və bayram yarmarkalarında, şəhər və rayon mərkəzlərindəki mağazalarda, kəndlərdəki xidmət mərkəzlərində, eləcə də ölkəmizin digər bölgələrindəki “Naxçıvan məhsulları” mağazalarında satışının təşkili, muxtar respublikanın bütün rayonlarında ailə təsərrüfatı məhsulları festivallarının keçirilməsi və nümunəvi ailə təsərrüfatlarının iş təcrübəsinin yayılması barədə tapşırıqlar vermişdir.



Festival noyabrın 11-dək davam etmiş, iştirakçılar arasında “Ən yaxşı məhsul” nominasiyası üzrə müsabiqə keçirilmişdir.

Festivalda Naxçıvan Dövlət Filarmoniyasının kollektivi konsert proqramı ilə çıxış etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Noyabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Norveç Krallığının ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Olav Nils Thue ilə görüşüb.

Ali Məclisin Sədri qonağı salamlayıb, Norveç Krallığının Azərbaycandakı səfirliyinin ölkələrimiz arasındakı əlaqələrin inkişafına verdiyi töhfəni qeyd edib. İkitərəfli münasibətlərdə Naxçıvan Muxtar Respublikasının rolundan, təhsil, mədəniyyət və ticarət sahələrindəki əlaqələrdən bəhs edən Ali Məclisin Sədri muxtar respublikanın universitetlərinin Norveç universitetləri ilə birlikdə TEMPUS və ERASMUS proqramlarında iştirakını diqqətə çatdırıb.

Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası ilə Norveç Krallığı arasında elm, təhsil, mədəniyyət və digər sahələrdə əlaqələrin inkişafı üçün imkanların olduğunu bildirib.

Naxçıvan haqqında geniş məlumata malik olduğunu bildirən Olav Nils Thue muxtar respublikaya səfərindən və göstərilən münasibətdən məmnunluğunu ifadə edib. Qonaq ölkəsinin Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini diqqətə çatdırıb, əməkdaşlığın genişləndirilməsində səylərin artırılacağını vurğulayıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin 35-ci Sessiyasında Azərbaycan nümayəndə heyəti iştirak edib



***5-8 noyabr tarixlərində Strasburqda keçirilən Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin 35-ci Sessiyasında Azərbaycan nümayəndə heyəti iştirak etmişdir.***

"İnteqrasiya və yerli və regional seçkili nümayəndələrin etik davranışı" devizi altında keçirilən konqresin növbəti sessiyasında açıq və şəffaf hökumət, maraqlar konflikti, yerli siyasi mühitə cəlb olunan şəxslərin davranış kodeksi barədə müzakirələr aparılmış və müvafiq sənədlər səsverməyə çıxarılmışdır. Həmçinin miqrasiya məsələləri, məcburi köçkünlərin inteqrasiyasının hazırkı vəziyyəti barədə debatlar keçirilmiş, müvafiq qətnamə və tövsiyələr qəbul edilmişdir. Sessiyada yerli və regional hakimiyyət orqanlarının mərkəzi hökumətlərlə məsləhətləşməsi mexanizmləri, həmçinin qurumun monitorinq fəaliyyəti çərçivəsində Litva və Sloveniya üzrə monitorinq, Gürcüstan, Moldova, Niderland və Tunisdə keçirilmiş seçkilərin müşahidə edilməsi ilə bağlı seçki müşahidə missiyalarının yekun hesabatları da müzakirə olunmuşdur.

35-ci sessiya Xorvatiyanın Avropa Şurasında sədrlik dövrünə təsadüf etdiyindən yığıncaqda həmin ölkənin Baş nazirinin müavini, xarici işlər naziri Maria Peyçinoviç Buriç nümayəndələr qarşısında çıxış etmiş və onların ünvanladığı sualları cavablandırmışdır.

Sessiyanın plenar iclasında "Avropa regionları və bələdiyyələrində miqrant və məcburi köçkünlərin uğurlu və uzunmüddətli inteqrasiyasında səsvermə hüququ" adlı məsələ müzakirə olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Azərbaycan nümayəndə heyətinin rəhbəri Anar İbrahimov müzakirə olunan məsələ ilə bağlı çıxış edərək demişdir ki, səsvermə hüququ insan hüquqları daxilində çox mühüm əhəmiyyətə malikdir. Məsələyə məcburi köçkünlər kontekstindən baxıldığında bunun bir qədər miqrantlara olan yanaşmadan fərqli vəziyyət olduğu görünür. Çünki bu məsələdə diferensial yanaşmanın, lazım gəldikdə isə birmənalı qiymətləndirmənin vacibliyi nəzərə alınmalıdır. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının məlumatına görə, dünyadakı 25 milyon məcburi köçkündən 5 milyonu Avropa Şurasının üzv dövlətlərinin payına düşür. Bu, bütövlükdə, demokratiya, insan hüquq və azadlıqlarından danışan Avropa Şurası üçün utancvericidir.

Anar İbrahimov Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti nəticəsində bir milyondan çox məcburi köçkünün öz torpağında etnik təmizləməyə məruz qaldığını bildirmiş və təklif etmişdir ki, inteqrasiya prosesləri önə çəkilməklə əsl problemin həllinə – bütün məcburi köçkünlərin daimi yaşayış yerinə qayıtmaq haqqının tanınmasına, onların vətənlərində təhlükəsiz və layiqli yaşamasına nail olunmalıdır.

Azərbaycan nümayəndə heyəti müzakirə olunan sənədə 7-ci hissənin əlavə olunmasına dair düzəliş təklif etmişdir. Nümayəndələr irəli sürülən təklifi böyük səs çoxluğu ilə (119 lehinə, 4 əleyhinə, 8 bitərəf) dəstəkləmişlər. Qəbul olunan tövsiyə Avropa Şurasının Nazirlər Komitəsinə təqdim olunacaqdır.

Sessiyanın gedişində Azərbaycan nümayəndə heyəti ilə Fransa nümayəndə heyətinin görüşü olmuşdur. Görüşdə Fransanın bəzi bələdiyyələrinin Azərbaycanın işğal altında olan şəhərlərində qondarma rejimin yaratdığı "bələdiyyələrlə" qardaşlaşması, müqavilə imzalanması və işğal olunmuş ərazilərə qeyri-qanuni səfərlərin təşkil edilməsinə dair Azərbaycan tərəfinin etirazı çatdırılmış və tələb edilmişdir ki, Fransa heyəti bu cür qeyri-qanuni hərəkətlərə müvafiq qiymət versin. Fransa nümayəndə heyəti bununla bağlı öz səviyyələrində araşdırma aparacaqlarını bildirmişdir.

**"Şərq qapısı"**

## Andiçmə mərasimləri keçirilib







*9 Noyabr – Dövlət Bayrağı Günündə Naxçıvan Qarnizonu qoşunlarında hərbi andiçmə mərasimləri keçirilib.*

Əlahiddə Ümumqoşun Orduda keçirilən mərasimdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra gənc əsgərlər Vətənə sədaqət andı içiblər.

Tədbirdə zabit, əsgər və valideynlər gənc əsgərləri hərbi andı qəbul etmələri münasibətilə təbrik ediblər.

Çıxışların ardından Əlahiddə Ümumqoşun Ordu Komandanı, general-leytenant Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırılıb. Bildirilib ki, bu gün komandirlərinin və valideynlərinin şahidliyi ilə Vətənə sədaqət andı içən gənc əsgərlər Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qoruyacaqlarına, bunun üçün qanlarını və canlarını əsirgəməyəcəklərinə təntənəli surətdə söz veriblər. Hərbi anda sadiq olmaq hər bir əsgər üçün şərəf, ləyaqət və vicdan məsələsidir. Məhz buna görə də başı üzərində şərəf və ləyaqət simvolu olan Azərbaycan bayrağı dalğalanan əsgərlərimizin şücaəti düşmənlərimiz üçün gözdağı, xalqımız üçün isə fəxr və qürur mənbəyidir.

Şəxsi heyətin tribunanın önündən təntənəli keçidindən sonra əsgər valideynləri və yaxınları hərbi hissələrdə yaradılan yaşayış və məişət şəraiti ilə tanış olublar. Valideynlər yaradılan şəraitə görə dövlətimizə minnətdarlıqlarını bildirib və övladlarının hərbi andı qəbul etmələrindən qürur hissi keçirdiklərini ifadə ediblər.

Həmin gün Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasında, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında da gənc əsgərlərin hərbi andiçmə mərasimləri keçirilib.

**Xəbərlər şöbəsi**

## İki məktub

***Naxçıvanın tarix və mədəniyyətinin geniş tədqiqi və öyrənilməsi istiqamətində son illər həyata keçirilən ardıcıl tədbirlər Azərbaycan tarixşünaslığına əvəzsiz töhfədir. Aparılan arxeoloji qazıntılar, qədim diyardakı tarixi abidələrin bərpası, davamlı olaraq keçirilən elmi konfrans və simpoziumlar tarixə sahiblik və onu qoruyub yaşatmaq məramının ən dəyərli nümunələridir. Bu sıraya son illər mühüm tarixi fakt və sənədlər əsasında hazırlanıb nəşr edilən kitab və monoqrafiyaları da əlavə etsək, görülən işlərin sistemliliyi bir daha öz təsdiqini tapar.***




"Nuh Peyğəmbər: Dünya tufanı və Naxçıvan", "Naxçıvan Ensiklopediyası", "Naxçıvan tarixi" çoxcildliyi, "Naxçıvan tarixi atlası", "Naxçıvan abidələri ensiklopediyası", "Naxçıvanda arxeoloji tədqiqatlar", "Əlincəqala", "Dədə Qorqud yurdu Naxçıvan: tarixi-coğrafi və etnoqrafik atlas", "Naxçıvan türk-islam mədəniyyəti abidələri" kimi yüzlərlə fundamental əsərlər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təşəbbüsü və bilavasitə rəhbərliyi ilə meydana çıxan xüsusi əhəmiyyətli elmi-tarixi nəşrlərdir. Dəqiq tarixi faktlar, xəritələr, fotoşəkillər və digər sənədlər əsasında hazırlanan həmin nəşrlər Azərbaycan tarixinin öyrənilməsinə mühüm töhfələr verməklə yanaşı, həm də tariximizi saxtalaşdırmağa çalışan və sovet dövründə buna nail olan ermənilərə də ən tutarlı cavabdır.

Həmin siyahıya daxil olan daha bir nümunə bu günlərdə Naxçıvanda nəşr edilən "A.S.Qriboyedov: Şair-diplomat" kitabıdır. Publisist və politoloq Reyhan Mirzəzadənin qələmə aldığı bu kitabda Azərbaycan, eləcə də Naxçıvan tarixi üçün əhəmiyyətli olan bir sıra mühüm məqamlar öz əksini tapıb.

Əsərdə polyak əsilli tanınmış rus dramaturqu, yazıçı və diplomatı Aleksandr Qriboyedovun (1795-1829) həyat və fəaliyyətinə toxunulur, onun İkinci Rus-İran müharibəsinin (1826-1828-ci illər) nəticəsi olaraq meydana çıxan Türkmənçay sülh müqaviləsinin hazırlanıb imzalanmasındakı fəaliyyəti diqqətə çatdırılır. Onun məşhur "Ağıldan bəla" komediyasını Azərbaycanda yazmağa başlaması qeyd olunur. Qriboyedovun görkəmli tarixçi və mütəfəkkir Abbasqulu ağa Bakıxanovla dostluğu və işgüzar əlaqələrindən də bəhs edilən kitabda rus diplomatının Naxçıvan haqqında qeydləri də diqqəti cəlb edir. O, Naxçıvanın tarix və təbiətinə, mədəni mühitinə, zəhmətkeş və vətənpərvər insanlarına heyranlığını dilə gətirir.

Onun 1819-cu ilə aid olan qeydlərindən oxuyuruq: *"Biz dağlara qalxdıq. Bir neçə saatlıq yoldan sonra məşhur İlanlıdağın (Haçadağ) yanına çatdıq; biz buradan Qazançı adlanan kəndə qalxdıq... Naxçıvan vadisinin geniş səhrası nəzəri cəlb edir, şimal-şərq istiqamətində Dağlıq Qarabağ mənzərələri füsunkar təbii cizgilərlə insanı valeh edir. Sonra İlan dağı və Arazın o tayında ona bənzər daha iki dağ da görünür; nəhayət, qərb tərəfdə nəhəng Ağrı dağı ucalır. Naxçıvan özü də uzun bir təpəlik üzərində yerləşir ki, bu da Qarabağ dağlarının davamıdır".*

Qriboyedov "İrəvan yürüşü" qeydlərində müharibəni pisləyərək yazır: *"Araz boyunca yerləşən kəndlərin zəmiləri sapsarı saralmış, lakin məhsul yığanlar yoxdur. Çünki adamlar qaçhaqaç zamanı doğma yerləri tərk etmişlər".*

Ümumiyyətlə, Rus-İran müharibəsi dövründə tərtib edilən "İrəvan yürüşü" qeydlərində Naxçıvan barədə xeyli məlumatlara rast gəlinir. Həmin qeydləri nəzərdən keçirdikcə aydın olur ki, Naxçıvan Qriboyedovun tərcümeyi-halında və yaradıcılığında mühüm yer tutub. O, Naxçıvanda Bakıxanovla birlikdə İran tərəfi ilə danışıqlara başlamış, İrandan köçürülmüş ermənilərin qəbulu ilə əlaqədar tədbirləri müzakirə etmişdir. Nəhayət, 1829-cu ildə Rusiyanın Tehrandakı səfirliyinə hücum zamanı işgəncə ilə öldürülən yazıçının cənazəsi də Naxçıvanda qarşılanmışdır.

Rusiyanın İrandakı səfiri kimi həyatla vidalaşan Qriboyedovun cənazəsini qarşılayan dostları arasında olan rus şairi V.Qriqoryev Naxçıvan haqqında tədqiqat apararaq 1833-cü ildə "Naxçıvan əyalətinin statistik təsviri" adlı qiymətli əsərini çap etdirib.

### İkinci məktub

Reyhan Mirzəzadənin "A.S.Qriboyedov: Şair-diplomat" kitabında diqqəti çəkən ən əsas məqamlardan biri də Qriboyedovun 1828-ci ilin oktyabrında Culfa şəhərində yazdığı məktubdur. Qafqazın ali baş komandanı, general Paskeviçə ünvanlanan məktub işğalçı ermənilərin Cənubi Qafqazın əzəli sakinləri olmaları yönümündəki saxtalamalarına ən tutarlı cavablardan biridir. Qriboyedov həmin məktubunda yazır: *"Türkmənçay müqaviləsindən sonra ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi düşünülməmiş bir siyasətdir. Çünki rus hökumətinin belə bir köçə razılıq verməsi Naxçıvanda köklü və yerli əhalinin haqlı etirazına səbəb olur... Bu köçəcən Naxçıvanda çox az miqdarda – barmaqla sayılacaq qədər erməni yaşayıb".*

Qriboyedov daha sonra bu konfliktə səbəb olan problemin başqa bir diplomatik həllini təklif edir: *"Köçürülən erməni ailələrini başqa bir yerə yollasınlar. Onsuz da onların yaşamağa yeri-yurdu yoxdur. Belə çıxır ki, biz yerli bəy-xanların hakimiyyətini əlindən alırıq, əvəzində isə yerli əhaliyə yad və dolaşıq qanunlar sırımaq fikrindəyik. Burada elə bir vəziyyət yaranmasın ki, xalq arasında böyük hörmət və etibar qazanmış şəxslərin və din xadimlərinin başının üstündən tamam yad bir millətin qanunlarını zorakı şəkildə qüvvəyə mindirək".*

Bacarıqlı diplomat olan Qriboyedov ermənilərin xarakterinə və xislətinə yaxından bələd olduğu üçün gələcəkdəki real təhlükələri dövlətin ən yüksək dairələrinə qədər aparıb çıxara bilmişdir.

O, rus imperatoruna yazırdı: *"Əlahəzrət, mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verməyin. Onlar elə tayfadırlar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar və "bura bizim qədim dədə-baba torpağımızdır", – deyəcəklər".*

Rusiyanın Əməkdar mədəniyyət işçisi, Rusiya Yazıçılar Birliyinin katibi Sergey Dmitriyev də mövzu ilə əlaqədar olaraq yazır ki, həmin dövrdə 2-3 il ərzində 70 min erməni İrandan Azərbaycana köçürüldü. Onlar, əsasən, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərinə köçürüldülər. Dağlıq Qarabağa ermənilərin köçürülməsi ilə bağlı tarixi məqama da toxunan Dimitriyev bildirib ki, A.Qriboyedov ermənilərin bu ərazilərə köçürülməsində iştirak etsə də, bu işdə tam günahkar deyil: "Düzdür, "Türkmənçay" müqaviləsini Qriboyedov özü yazmışdı. Lakin müqaviləyə 15-ci, ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi maddəsinin əlavə olunması məsələsinə gəldikdə, bu məsələ 1813-cü ildə imzalanan "Gülüstan" sülh müqaviləsində də öz əksini tapmışdır".

Bütün bu faktlar bir daha təsdiq edir ki, ermənilər Cənubi Qafqaza, eləcə də Azərbaycan ərazilərinə iki əsr bundan əvvəl köçürülmüşlər. Və təbii olaraq onlar bizim torpaqlarımızda qədim tarixi abidə və ya mədəniyyət yarada bilməzdilər. Belə deyək ki, ermənilər bu ərazilərə Əcəmi 12-ci əsrdə Naxçıvan şəhərində Möminə xatın türbəsini ucaltdıqdan 6 əsr sonra köçürülmüşlər.

### Birinci məktub



Bu məqamda qeyd etmək yerinə düşər ki, Qriboyedovun Paskeviçə göndərdiyi məktub kimi, İrəvan şəhərinin hakimi, Çuxursəd bəylərbəyi Rəvanqulu xanın 1519-cu ildə Şah İsmayıl Xətaiyə yazdığı məktub da tarixən ermənilərin Qafqaza hansı şəraitdə gəlib məskən salmalarını sübut edən rəsmi dövlət sənədi və tarixi fakt kimi müstəsna əhəmiyyətə malikdir. Bu məktub İrəvan xanlığının işğalından sonra tarixi torpaqlarımızda özlərinə dövlət quran, bu işğalçılıq və terror siyasətini bütün 20-ci əsr boyu davam etdirən ermənilərə daha bir tutarlı cavabdır: *"Ulu şahım! Mən qulluq həddimi heç zaman aşmamışam. Lakin son illər müşahidələrimə görə, Büynənnəhreydən (İkiçayarasından S.T.) Van gölü sahillərinə, oradan da beş-beş, on-on Qafa, bizim torpaqlara gələn ermənilər, sazişdəkilər kimi, kəsbkarlıqla, bənna və dülgərliklə güzəran sürüb fərağat oturmaqdansa, tabeliyimdəki torpaqlarda vurnuxma meyillərinə başlamış, geniş oturaq həyat iddialarına qapılmışlar. İndi Ağkilsə kəndində əyləşən dünya ermənilərinin katalikosu ikinci Qriqori təxribatçılıq əməlləri ilə idarəmizi müşkülə məruz qoyub. Katalikos erməni dini mərkəzinə vəqf sərmayəsi hesabına öz soydaşlarının türk torpaqlarında ikiüç ailə olmaqla oturaq məskunlaşmasını maliyyələşdirir, onlara ufacıq kilsələr tikdirir, beləliklə, bu tayfanın Qafda qədim mövcudiyyəti təsəvvürü yaradır ki, bunlar istiqbalda nəsillərimizə başağrısı verə biləcək fəsadlar törənməsinə zəmin yarada bilər. İndi zikr olunan ərazidə elə bir kəndimiz, obamız qalmayıb ki, orada üç yad ailə işığı yanmasın. İsmətsizlik əxlaqına qurşanmış hayk qız-gəlinləri türk dəliqanlı cavanlarına sıranmağa can atır, qədim peşəliklə könüllər ovundurur, Oğuzlara ərə getməyə, başqa sözlə, mülkümüzü, malımıza şərik çıxmağa çalışır, siyasətdə "sakit təcavüz" adlanan cinayətlər törədirlər. Qarışıq nikahların vüsəti məni qorxudur, şahım. Mənə səlahiyyət ver, cəmi 15 min gəlməni mövsümi işçilər kimi qısım-qısım qaytarım vətənin dışlarına. Sənin qulun Rəvan xan".*

### Son söz

*Əlbəttə, əlahəzrət faktdan böyük fakt yoxdur. Bu cür tarixi sənəd və faktların, xüsusən gənclərimiz tərəfindən mənimsənilməsi son dərəcə vacib məsələdir. Düşünürəm ki, bu cür tutarlı tarixi faktların həm öz dilimizdə, həm də rus və ingilis dillərinə tərcümə edilməklə internet resursları üzərindən geniş yayılmasına da ehtiyac vardır. Çünki bu gün müharibə təkcə qoşunlarla yox, həm də informasiya, elmi fakt və dəlillərlə aparılır. İstər Reyhan Mirzəzadənin "A.S. Qriboyedov: Şair-diplomat" kitabındakı mühüm faktların, istərsə də sadalanan digər sənədli materialların geniş arealda yayılmasına hər birimiz səy göstərməliyik.*

**Sahil TAHİRLİ**
***jurnalist***

*Jurnalistin qeydləri*

# "Korvet" həsrəti...



İndi gündəlik həyatımızı kompütersiz, telefonsuz, bir sözlə, yeni texnologiyalar olmadan təsəvvür etmək mümkün deyil. İşdə də, evdə də, yolda da, marşrutda da, hətta dağın başına qalxanda da, dənizdə dincələndə də, yemək yeyəndə də bir vasitə ilə sosial şəbəkələrə yol tapırıq, ya kompüteri, ya telefonu, ya da planşeti əlimizə alırıq. Bunun yaxşı tərəfləri çoxdu, amma mənfi tərəfləri də var.

Nəsə, söhbətimin mövzusu bu deyil.

Orta məktəbdə oxuyanda ən böyük arzum o vaxtlar həyatımıza təzə-təzə ayaq açan yeni texnologiyaları, xüsusilə də kompüteri öyrənmək idi. Amma dövrün məlum çətinlikləri – müharibə, iqtisadi tənəzzül və bunların yaratdığı sosial problemlər elə etmişdi ki, oxuyub-yazmağa kitab-dəftəri ancaq tapırdıq. Hardan qalsın ki, kompüter öyrənək.

Təhsil aldığım Kükü kənd tam orta məktəbinin kompüter otağında sovetin son "nailiyyəti" – 1986-cı il istehsalı olan kompüterlər quraşdırılmışdı. Həmin kompüterlərin dəqiq elmi adını bilmirəm, amma məktəbdə hamı onlara "korvet" deyirdi. Lakin mühüm olan kompüterlərin markası deyildi. Mühüm olan o idi ki, kompüter otağının qapısına yekə bir qıfıl vurulmuşdu və həmin otaq bütün şagirdlərin üzünə bağlı idi. Bu otağa daxil olmaq, kompüterlərə əl vurmaq hər şagirdə nəsib olmurdu. Təxəyyülümüzdə o otaq sanki sirli-sehrli bir dünya, fövqəladə bir yer idi. Müəllim informatika dərsində növbə ilə aramızdan bir şagird seçirdi və o şagird kompüter otağında böyük həvəslə "korvet"lərin tozunu təmizləyirdi. Vəssalam. Başqa heç nə etmək olmazdı. Açığı, kimsənin cürəti də çatmazdı ki, kompüteri işə salsın. Lakin kompüterin tozunu təmizləməyin özü bizim üçün "böyük nailiyyət" idi. Çünki ən azından dövrün başa vursa da, həmin "korvet"lər bizdə kompüter deyilən nəsnənin nədən ibarət olduğu haqda azdan-çoxdan təsəvvür formalaşdırırdı.

İnformatika dərslərimizdə yeni texnologiyaları öyrənmək sahəsində gördüyümüz yeganə iş bununla bitirdi. Qalan vaxtımızı isə məktəbin futbol meydançasında top qovmaqla keçirirdik.

İnsafən, bir dəfə o kompüterləri işə salıb nə olduğunu bizə göstərdilər. Onda da bir dərs saatı nə qədər əlləşdiksə, çalışıb-vuruşduqsa da, bu "korvet"lərin ağqara ekranında yazılanlardan baş çıxara bilmədik.

Bizdən əvvəl məzun olanlar isə bu "korvet"lərdən də bixəbər idilər. Çünki onların vaxtında kompüterlər qıfıllı qapılar arxasında deyil, elə qutularında qapalı qalmışdı.

Bax beləcə, məktəbimizdə hər kəsin ürəyində bir "korvet həsrəti" var idi.

Bir neçə il ötdükdən sonra məktəbimizə iki müasir kompüter verildi. Yeni təyinat alan gənc müəllim Məsud Qəhrəmanov həvəslə kompüterin sirlərini şagirdlərə öyrədir, insafən, biz də azdan-çoxdan nəsə öyrənirdik. Məktəb illərində kompüter texnologiyası ilə bağlı nə öyrəndiksə, Məsud müəllimin və verilən təzə kompüterlərin sayəsində öyrənmiş olduq.

Bütün bu sadaladıqlarım 20-25 il bundan əvvəl müşahidə etdiklərimdir. Aydın məsələdir ki, bu gün muxtar respublikada şagirdlər üçün kompüter, internet, ümumiyyətlə, yeni texnologiyalar o qədər əlçatan və asandır ki, bəlkə də, bayaqdan sadaladıqlarım çoxuna gülünc gəlir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təhsilin inkişafı sahəsində gördüyü işlərin nəticəsidir ki, indi bütün məktəblər ən yeni tədris bazasına malik olmaqla yanaşı, həm də kompüterlərlə, internetlə, informasiya texnologiyaları ilə təmin edilib. Hələ bir az da irəli gedilib, müasir elektron lövhələr quraşdırılıb.

Faktlara diqqət yetirək:

*– Bu gün muxtar respublikanın bütün yaşayış məntəqələrində ən möhtəşəm binalar məktəblər üçün tikilib. Ən ideal şərait təhsil müəssisələri üçün yaradılıb.*

*– Muxtar respublikanın ümumtəhsil məktəblərində 5500 kompüter, 600-dən çox elektron lövhə quraşdırılıb. Hər 9 şagird bir kompüterlə təmin edilib.*

*– İstər şəhərdə, istərsə də kənddə gənclər üçün eyni təhsil imkanları yaradılıb.*

*– Ümumtəhsil məktəbləri ilə muzeylər arasında distant təhsil şəbəkəsi qurulub, interaktiv dərslər keçilir, videokonfranslar təşkil olunur.*

*– Şagirdlər artıq informatika dərslərində yeni texnologiyaları öyrənir, dünyəvi biliklərə yiyələnir, təhsil sahəsindəki yeniliklərlə tanış olurlar.*

*– Sürətli internet təminatı bir çox sahədə rahatlıq yaratdığı kimi, təhsil sistemində də yenilik və tərəqqiyə rəvac verib. İndi dünyanın o biri başında yaşayan da muxtar respublikaya gəlmədən Naxçıvan Dövlət Universitetində ali təhsil alır. Universitetdə İnformasiya sistemləri ixtisası tədris edilir.*

*– Dəqiq elmlərə, yeni texnologiyalara tələbat nəzərə alınaraq bu sahə üzrə ixtisasların tədrisinə və ixtisaslı kadr hazırlığına diqqət artırılıb.*

**Nəticə**

Bu günlərdə Babək rayonunun Aşağı və Yuxarı Buzqov kəndlərində oldum, yeni istifadəyə verilən məktəblərdə kompüter otaqlarını, elektron lövhəli sinifləri gördüm. Kompüter otağının da, elektron lövhəli siniflərin də qapısı açıq idi. Şagirdlər kompüter öyrənir, interaktiv dərslər keçilirdi. Ən son texnologiyalara əsaslanan kompüterlərin, elektron lövhələrin və yaradılan digər təhsil şəraitinin kollektivdə yaratdığı minnətdarlıq hissini duymamaq, onlarla birlikdə qürurlanmamaq, fəxr etməmək əldə deyildi. Etibarlı gələcəyimiz üçün görülən bu işlər mənim kimi bir çoxlarının "korvet" həsrətinə də son qoyub.

Artıq "korvet" kimi, şəraitsiz və dərsliksiz soyuq siniflər də, qapısı qıfıllı informatika kabinələri və idman zalları da yalnız yaddaşımızın bir küncündə yaşayır… Keçmiş keçmişliyində qaldığı kimi, müasir həyatın və gözəl gələcəyin qədrini bilməkdən ötəri həm də yaxşı bir meyardır…

**Ülvi HÜSEYNLİ**
*jurnalist*

*Xaçmaz rayonunda keçirilən "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə respublika çempionatının final mərhələsinə yekun vurulub.*

## Komandamız respublika çempionatının qalibi olub




Yarış poliatlon beşnövçülük proqramı üzrə 100 metr məsafəyə qaçış, pnevmatik tüfəngdən atıcılıq, qumbaraatma, turnikdədartınma və 2000 metr məsafəyə kross qaçışı üzrə keçirilib.

Yarışda Naxçıvanı muxtar respublika üzrə zona birinciliyində qalib olmuş Naxçıvan şəhərindəki 9 nömrəli tam orta məktəbin komandası təmsil edib. 16 komandanın iştirak etdiyi çempionatda komandamız 1106 xalla ölkə birinciliyinin qalibi olub. Onlar Bakı, Sumqayıt və Mingəçevir komandalarını qabaqlayıblar.

Eyni zamanda təmsilçimiz Kamran Allahverdiyev turnikdədartınmada ən yüksək nəticəni göstərərək (39 dəfə) xüsusi mükafata layiq görülüb.

Qaliblərə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin kubok və diplomları təqdim olunub.

## Beynəlxalq Tələbə-Gənclər Həftəsinə start verilib



*Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində 10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar ali və orta ixtisas təhsili müəssisələrinin komandaları arasında "Xəmsə" milli intellektual oyunu keçirilib.*

Oyun 1/4 final, yarımfinal və final mərhələlərindən ibarət olub. Yekun nəticəyə əsasən 12 komandanın mübarizə apardığı oyunda Naxçıvan Dövlət Universitetinin "Diplomat" komandası daha çox xal toplayaraq qalib adını qazanıb. Naxçıvan Dövlət Texniki Kollecinin "Zirvə" komandası ikinci, Naxçıvan Dövlət Universitetinin "Qisas" komandası üçüncü olub.

İntellektual oyun Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilib.

Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar keçirilən tələbələr arasında stolüstü tennis üzrə muxtar respublika birinciliyinə yekun vurulub.

6 komandanın 18 idmançısının mübarizə apardığı birincilik olimpiya sistemi üzrə keçirilib. Oğlanlar arasında Kubilay Kumlay (Naxçıvan Dövlət Universiteti) bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olub. Digər iki pillədə Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Mətin Bağırov və Naxçıvan Dövlət Universitetinin tələbəsi Caner Atacan qərarlaşıblar.

Qızlar arasında isə Naxçıvan Dövlət Universitetinin tələbəsi Xurşud Mahmudova hamıdan güclü olub. Bu universitetinin digər tələbəsi Nərminə Məmmədova və Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Nərmin Mustafazadə ikinci və üçüncü yerlə kifayətləniblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Festivalın qalibləri mükafatlandırılıb

***Ötən həftənin şənbə və bazar günləri "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən daha bir festival – "Ailə təsərrüfatı məhsulları" festivalı xoş anlarla yadda qaldı.***

Muxtar respublikamızın bütün rayonlarından diyarımızın iqtisadi göstəricilərini əks etdirən məhsullar festivala çıxarılmışdı. Festivalın sonunda "Ən yaxşı məhsul" nominasiyası üzrə müsabiqənin qaliblərinə diplomlar təqdim olundu.

Müsabiqənin nəticələrinə əsasən Şərur, Culfa və Şahbuz rayonlarından müvafiq olaraq Muqbil Zamanov, Çiçək Bayramova və Abbas Hacıyev festivalın qalibləri olublar. Ordubad, Babək, Kəngərli rayonlarından Mustafa Qədimov, Tofiq Abutalıbov və Pakizə İsmayılova ikinci, Sədərək rayonu, Naxçıvan şəhəri və Şərur rayonundan Mehbarə Hüseynova, Mübariz Mirzəyev və Sənan Qasımzadə isə üçüncü yerə layiq görülüblər.

**Xəbərlər şöbəsi**

## Reproduktiv sağlamlıq və ailə dəyərləri

***Ordubad rayonunun Yuxarı Əylis kəndində "Reproduktiv sağlamlıq və ailə dəyərləri" mövzusunda keçirilən tədbiri rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli açıb.***

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova "Ailələrdə qadınların ailə dəyərlərinin və sağlam həyat tərzinin aşılanmasında əsas rolu" mövzusunda çıxış edərək bildirib ki, sağlam cəmiyyətin bünövrəsi olan ailənin daha davamlı olmasının əsas şərtlərindən biri də valideynlər, xüsusən də qadınlarımız tərəfindən gənclərə ailə qurmaları ilə əlaqədar düzgün yol göstərilməsidir. Ailə quracaq gənclərlə tibbi maarifləndirmə işi də düzgün aparılmalıdır.

Ramilə Seyidova qeyd edib ki, aparılan təhlillərə görə Ordubad rayonu üzrə 17837 uşaq vardır. Bu uşaqlardan 161-nin sağlamlıq imkanları məhduddur. Bu da ümumi uşaqların 0,90 faizini təşkil edir. Muxtar respublika üzrə 1937 sağlamlıq imkanları məhdud uşaq vardır ki, onların da 8,31 faizi Ordubad rayonunun payına düşür.

Aparılan araşdırmalar onu göstərir ki, sağlam ailənin formalaşması üçün tərəflər sağlam həyat yaşamalı, nikaha daxil olarkən lazımi həkim müayinəsindən keçməli və sonrakı dövrdə də ailələrin reproduktiv sağlamlığı daim diqqət mərkəzində saxlanılmalıdır.

Tədbirdə "Qadınlarda virus hepatitlərinin fəsadları, bətn daxilindəki uşağın xəstəlikləri və onlarla mübarizə yolları" mövzusunda isə Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb elmləri üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva çıxış edib.

Sonda tədbir iştirakçılarının suallarını cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 12 noyabr 2018-ci il tarixə taxıl səpininin gedişinə dair operativ məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 2182,0 | 2050,0 | 132,0 |
| 2. | Babək rayonu | 5622,0 | 4025,0 | 1597,0 |
| 3. | Ordubad rayonu | 968,0 | 630,0 | 338,0 |
| 4. | Culfa rayonu | 3381,0 | 2920,0 | 461,0 |
| 5. | Kəngərli rayonu | 3809,0 | 2024,0 | 1785,0 |
| 6. | Şahbuz rayonu | 731,0 | 726,0 | 5,0 |
| 7. | Sədərək rayonu | 1242,0 | 950,0 | 292,0 |
| 8. | Naxçıvan şəhəri | 681,0 | 580,0 | 101,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **18616,0** | **13905,0** | **4711,0** |

***İtmişdir***

Məmmədov Ələsgər Hidayət oğlunun adına olan torpaq sahəsinin 190/0.91 inventar nömrəli plan-ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 826